# Humanitar atəşkəsin antihumanist qatilləri

## Vəhşiliyin bariz nümunəsi

Bu dünyada ədalət deyə bir anlayış var. Kimi işinə gəlincə, kimi fürsət düşdükcə böyük hərflərlə yazır, bağıra-bağıra car çəkir dünyaya... Amma bu söz həm həqiqi, həm məcazi mənada mücərrəddir ki, mücərrəd. Çünki düz 30 ilə yaxın bir zaman kəsiyində bütün dünyaya az qalsın çığıra-çığıra bəyan edirik ədalət, ədalət! - deyə. Xocalıda diri-diri yandırılan, donan, divara mismarlanan, anasının bətnindən zorla sökülən, cəsədinin qulağı, burnu kəsilib, gözü tökülən körpələrin qanı yerdə qalıb. Çünki dünya nənəsinin qucağında düşmənin naməlum güllələsinə tuş gələn körpə Zəhraya, terrorun, quldur erməninin cinayətinə qurban gedən neçə Zəhraların nakam bitən hekayəsinə Avstraliyada yanan pinqvinlərə verdiyi qədər əhəmiyyət vermədi. Çünki "dünya" daima nahaqın, haqsızın tərəfində oldu. Tək "günahımız" müsəlman, türk olmağımız oldu həmişə. Səsimizə səs verən, hayımıza hay deyən tapılmadı. Yanıb-yanıb qovrulduq, kül olduq, öz tüstümüzə boğulduq. Lakin düşmən bilmirdi ki, bu tüstü bir gün onun da gözünə dolacaq, onu da kor edəcək. Qətlinə fərman verdiyi körpələrin ahı yerdə qalmayacaq.





Dünən küləklərdə, qucaqlarda gedən körpələr, bu gün tank üstündə geri qayıdacaqlar...Qayıdacaqlar ki, odda yanan, ölüsündən də intiqam alınan körpə bacı-qardaşlarının qisasını alsınlar. Qisas qiyamətə qalmaz deyirlər, qalmadı da...Hələ amalımız tamamlanmasa da, yolla çıxdığımız haqq-ədalət davamız bitməsə də sevinirik, sevinirik ki, ilahi ədalət təcəlli edir, haqqı nahaqa yem etməyən Allah səsimizi eşidir. Lakin bu yolda da tökülən qanlar, şəhid olan övladlarımız var. Təkcə ön cəbhədə deyil arxada döyüş meydanından xeyli uzaqda düşmənin mənfur əməllərinin namərd güllələsinin qurbanları var. Çox təəssüf ki, onların arasında yenə də uşaqlar var. Naftalanda qətlə yetirilən iki məktəbli, Gəncədə yaralanan körpələr, valideynlərini itirən uşaqlar kinli və qəddar uşaq qatillərinin qurbanıdır. Ən dəhşətlisi isə körpənin yatdığı otağa top mərmisinin divarda açdığı dəlikdən baxmaqdır. Bu, vandalizmdir, terrordur.

Tarixən qəddarlıqları, törətdikləri növbənöv cinayətlərlə məşhur olub ermənilər. Təkcə bizə, millətimizə qarşı yox, bütün türk dünyasına qarşı vəhşi bir kinlə silahlanmış bu canilər Muş qətliamı zamanı abırsızcasına bir foto çəkdirirlər. Biri əlində insan bədənindən çıxarılmış ürək, digəri isə ananın qarnından yarılaraq çıxarılan körpəni tutur. Bu onların vəhşiliklərindən yalnız biridir.

Həyat davam edir, bir gün vaxtsız dibindən qoparılan körpə fidanların qisası alınacaq, millətimə xalqıma qarşı törədilən cinayətlərin səbəbkarları layiqli cəzasını alacaq! O gün bütün dünya türk oğlu türkün, bozqurd soylu millətimin qılıncının pas atmadığının, gücünün tükənmədiyinin şahidi olacaq. O gün üçrəngli bayrağımız Xankəndini, Şuşanı bəzəyəcək. Şəhidlərin, nakam körpələrin ruhu rahat olacaq və biz heç vaxt ağlamayacağıq!

**Elza KƏRİMOVA.**
**Qəbələ şəhəri.**

***Humanitar atəşkəsin antihumanist terrorçuların təəssüf ki, yenə bizi təəcübləndirmədi. Azərbaycanın cəbhəyanı kəndləri ilə yanaşı, cəbhədən xeyli uzaqda yerləşən, ölkəmizin ikinci böyük şəhəri olan Gəncəni ağır artilleriyadan atəşə tutdular. Gəncə həm də Azərbaycanın böyük mədəniyyət mərkəzlərindən biridir. Bu şəhərin vurulması heç də mənfur siyasətin dediyi kimi təsadüf, bilməyərəkdən ola bilməzdi...Əlbəttə Ermənistan hərbi-siyasi rəhbərliyinin göstərişi ilə atıldı o raketlər. Amma yenə də biz dinc əhaliyə bir güllə belə doğrultmadıq. Böyüklüyümüzü döyüş meydanında göstəririk.***



Gəncə



Bərdə

## Anastas Mikoyanın Qarabağın Ermənistanla heç vaxt əlaqəsinin olmadığı barədə Leninə məruzəsi

- FOTOFAKT

Qafqaz Diyar Komitəsi Rusiya Kommunist (bolşeviklər) Partiyasının (RKP (B)) üzvü Anastas İvanoviç Mikoyan RKP (B) Mərkəzi Komitəsinə və Xalq Komissarları Şurasının sədri Vladimir İliç Leninə məruzəsində Qarabağın Ermənistanla ancaq bu, Qarabağ sakinləri üçün Bakıdakı həyat mənbələrindən məhrum olmaq və İrəvana bağlanmaq olardı, hansı ki, heç vaxt heç nə ilə əlaqələri olmayıb.

Erməni kəndliləri beşinci qurultayda Sovet Azərbaycanını tanımaq və ona qoşulmaq qərarına gəlib.



ИЗ ДОКЛАДА ЧЛЕНА КАВКАЗСКОГО КРАЙКОМА
РКП(б) А. И. МИКОЯНА
ЦК РКП(б) И ПРЕДСЕДАТЕЛЮ СОВНАРКОМА
В. И. ЛЕНИНУ

22 мая 1919 г.

Дашнаки — агенты армянского правительства добиваются присоединения Карабаха к Армении, но это для населения Карабаха значило бы лишиться источника своей жизни в Баку и связаться с Эриванью, с которой никогда и ничем не были связаны.

Армянское крестьянство на пятом съезде решило признать и примкнуть тоже к Советскому Азербайджану.

*Центральный партийный архив Института марксизма-ленинизма при ЦК КПСС (в дальнейшем — ЦПА ИМЛ). Ф. 461. Оп. 1.*

heç vaxt əlaqəsinin olmadığı bildirilir.

22 may 1919-cu il tarixli sənəddə deyilir:

"Daşnaklar-Ermənistan hökumətinin agentləri Qarabağın Ermənistana birləşdirilməsinə çalışırlar,

Mərkəzi Partiya arxivi

Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi yanında Marksizm-Leninizm İnstitutu (bundan sonra Marksizm - Leninizm İnstitutunun Mərkəzi Partiya Arxivindən)".

## Erməni vandalizmi

Tarixi-dini abidələr xalqımızın milli kimliyini, mənəvi-əxlaqı dəyərlərini və adət-ənənələrini özündə təcəssüm etdirən, onun yaddaşını hifz edən müqəddəs məkanlardır. Bildiyimiz kimi, Ermənistanın işğalçılıq siyasəti nəticəsində Azərbaycan xalqına məxsus çoxəsrlik qədim tarixi-dini abidələr dağıdılaraq yerlə-yeksan edilmiş, onların bir qismi isə saxtalaşdırılaraq erməniləşdirilmişdir. Təcavüzkar dövlətin məqsədi minilliklər ərzində yaşadığımız torpaqlarda həm tarixi keçmişimizi həm də mənəvi yaddaşımızı məhv etməkdir. İşğal altındakı müsəlman abidələri dağıdılmaqla bərabər həm də təhqir olunur. Məscidlərdə mal-qara və digər heyvanlar saxlanılır. Bəzən də ermənilər bu ərazilərdə yerləşən məscidlərin başqa dövlətlərə məxsus olduğunu iddia edir və bu niyyətlə də məkrli addımlar atırlar.

Sentyabrın 27-dən başlayaraq Ermənistan silahlı qüvvələrinin müxtəlif növ silahlardan Azərbaycanın yaşayış məntəqələrini atəşə tutması nəticəsində Gəncə şəhərinə, Bərdə, Goranboy, Ağcabədi, Tərtər, Ağdam, Füzuli, Beyləqan rayonlarındakı bir sıra tarixi-dini abidələrə də xeyli zərər yetirilmişdir.



Ermənistanın xalqımıza məxsus abidələri dağıtması "Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında" 1954-cü il Haaqa Konvensiyası, "Arxeoloji irsin mühafizəsi haqqında" 1992-ci il Avropa Konvensiyası və"Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında" UNESCO-nun 1972-ci il Konvensiyasının tələblərinə zidddir. Ermənistan tərəfindən Azərbaycan xalqının mədəni irsinin məhv edilməsinə və saxtalaşdırılmasına yönəlmiş, beynəlxalq sənədlərdə bəşəri cinayət kimi qiymətləndirilən bu əməllər bütün bəşər mədəniyyətinə qarşı təcavüzdür.

**Afət SÜLEYMANOVA,**
**"Qəbələ"**

## Xarici diplomatlar Gəncədə

Azərbaycandakı diplomatik korpusunun rəhbərləri, səfirlər, hərbi attaşelər və beynəlxalq təşkilatçıların nümayəndəliklərin rəhbərləri oktyabrın 12-də Gəncəyə səfər etmişlər. Səfərin məqsədi diplomatları Ermənistanın günahsız mülki insanlara və enerji infrastrukturuna qarşı həyata keçirilən raket hücumlarının səbəb olduğu cinayət səhnələri ilə tanış etmək idi.



Düşmənin şəhərin mərkəzi hissəsində yerləşən çoxmənzilli yaşayış binalarını atəşə tutması nəticəsində 5-i qadın olmaqla 10 nəfər həlak olub, 16-sı qadın, 6-sı azyaşlı uşaq olmaqla 34 nəfər yaralanıb. 10-dan artıq çoxmənzilli binaya və 100-dən çox müxtəlif təyinatlı obyektə ziyan dəyib.

Qeyd olunub ki, əhalinin çox yaşadığı ərazilərə "Toçka-U", "Smerç", "Skad" və digər raketlərlə hücumun həyata keçirilməsi çoxlu sayda insanların qətlə yetirilməsi məqsədi daşıyır. Təmas xəttindən uzaqda yerləşən Gəncə Ermənistanın Vardenis rayonundan atəşə tutulub.

Həmçinin sənaye şəhəri olan Mingəçevir şəhəri, o cümlədən Cənubi Qafqazın ən böyük istilik elektrik stansiyası, Mingəçevir Su Elektrik Stansiyası Ermənistan tərəfindən raket atəşinə məruz qalır.

Ermənistanın bu əməlləri Moskvada əldə olunmuş humanitar atəşkəs razılaşmasına ziddir.

Xarici diplomatlar erməni faşizminin izləri ilə tanış olub, həlak olan dinc sakinlərin xatirəsinə ehtiram əlaməti olaraq tamamilə dağılmış yaşayış binasının ətrafına gül düzüblər.

**"Qəbələ"**